**Gadimaliyev A.R.** ♦

**DOI:** 10.25108/2304-1730-1749.iolr.2019.60.83-106

# Some features of the modern methodology in studying of constitutional reforms

**Abstract**: It is described some features of modern methodology in the study of constitutional reform in modern times. The main objective is to summarize the results of scientific research on the scientific and methodological evaluation of modern constitutional reforms, the study of theories related to constitutional reform and their application in practice.

It is noted that the fundamental basis of the methodology for the study of constitutional reforms is the method of logical (dogmatic) analysis. Its use creates prerequisites for doctrinal descriptions, generalizations, systematization, logical regulation of material, definition of definitions, interpretations, interpretation of the events learned. This will allow the study of constitutional reform, starting with the simplest description of the constitutional and legal processes taking place within it and the associated constitutional and legal norms.

It is also investigated the additions and changes to other regulatory legal acts that contain constitutional legal norms. As a result of the research, both local and foreign experience on the subject was studied, and the existing problems in this area were expressed. The existing legal literature, the legal and regulatory framework have been analyzed, and a number of recommendations and suggestions have been made.

**Keywords**: constitutional law; constitutional reforms; constitutional dynamics.

♦ **Gadimaliyev Araz Raguf oglu –** PhD in Law, Associate Professor of the Department of Law of the Academy of Public Administration under the President of Azerbaijan Republic (Azerbaijan). E-mail: arazqadimaliyev@mail.ru

Konstitusiya dəyişikliklərinin araşdırılması sahəsində hüquq elminin metodologiyasının tədqiq edilməsi məsələlərinə həm yerli, həm də xarici konstitusionalist alimlər tərəfindən kifayət qədər diqqət ayrılmır. Eyni zamanda, ədəbiyyatı araşdırarkən iddia etmək olar ki, bu gün elmi ədəbiyyatda onun müasir sistematik ifadəsi yoxdur və konstitusiya islahatlarının ayrı-ayrı problemlərinin təhlilinə nadir hallarda rast gəlmək olar.

Son zamanlar açılmış və üzvləri bəzən bir-birinə diametrik zidd olan baxışlarla çıxış edən müzakirələr (onların bir qismi iddia edir ki, marksist və kvazielmi qalması səbəbindən konstitusiyanın dərk edilməsi metodologiyası faktiki olaraq mövcud deyil, digərləri isə, bunun əksinə olaraq, hazırki metodoloji yanaşmanın mövcud olan problemlərin həlli üçün tam kifayət etməsinə əmindirlər [10, s. 24]) insan biliyinin bu sahəsində çoxlu sayda problemlərin yığılmasına dəlalət edir.

Metodologiya metodun "sirri"-ni bilməyə çalışır, lakin onun "saf" dərk edilməsi heç bir vaxt alınmayacaq. Hələ T.Kun, P.Feyerabend və R.Merton elmi fəaliyyətin sırf metodoloji təsvirinin uyğunsuzluğu, adekvat olmaması barədə xəbərdarlıq edirdilər. Buna görə onu psixoloji, siyasi və sosio-mədəni amillərin təhlili ilə tamamlamaq lazımdır. Keçən əsrin yetmişinci illərində P. Feyerabend müxtəlif rasionallıq tipləri arasındakı əlaqələrin tolerantlığına, tarixi və sosio-mədəni amillərin determinant kimi tanınmasına əsaslanan dərk etmə prosesinin plüralizmini, elmi institusionalizasiyanı və tədqiqat ənənələrinin müxtəlifliyini bəyan edir [15, s. 125]. Kvazi-marksizm ehkamlarından qurtulmağa can atan Rusiyalı alimlərin çoxu özlərinin metodoloji plüralizmə sadiq olduqlarını bəyan etmişlər.

Müasir hüquq elmi metodoloji axtarışlardan kənar qalmamışdır. Əsas xüsusiyyətlərinə rasionalizm və praqmatizm aid etməli olan hüquqşünasların peşəkar mentalitetinə görə metodun "sirləri"-in açılması üzrə aparılan müzakirələr

kəskinliyi və ehtirasların coşması ilə fərqlənmirlər. Buna baxmayaraq, hüquq metodologiyasında hər hansı bir ənənə kimi (ümumiyyətlə lazımsız, lakin ona çox dərin hörmət nümayiş etdirilməsi zəruri olan) formal olaraq yanaşmamaq üçün müasir alimlərin hələ həll etməli olduqları elmi tədqiqatların fundamental prinsiplərinin "qarışıqlığı"-ndan irəli gələn bir sıra problemlər yarandı. Metodoloji qeyri-müəyyənlik səbəbindən yanlız elmiliyin xarici əlamətlərinə malik olan elmi tədqiqatlarda neqativ, mənfi bir tendensiya yaranmış və güclənməyə davam edir. Çünki, bu cür araşdırmalar həqiqəti tapmaq məqsədi ilə yox, ancaq hüquq ideyasının inkişafı üçün heç bir əhəmiyyətə və mahiyyətə malik olmayan postmodernist üslubda hansısa bir "boş" hüquqi quruluşun yaradılması naminə aparılır. Elmi axtarış obyektivlik metodoloji prinsipinə əsaslanmadıqda və yalnız öz-özü və müəllifin ambisiyaları naminə aparıldıqda onun nəticəsi yalnız möhtəkir mücərrəd quruluşlar – "hüquqi xülyalar" olur [8, s. 4].

Qeyd etmək lazımdır ki, tədqiqatçıların böyük bir qismi öz əsərlərinin metodoloji əsaslarının işıqlandırılmasına həsr edilmiş müddəaların ifadə edilməsində stereotip münasibət nümayiş etdirirlər. Eyni zamanda, bəzi müəlliflərdə belə bir təəssürat yaranır ki, onlar bu problem haqqında yalnız öz işlərinin son mərhələsində düşünmüş və onu öz sələflərinin metodoloji nailiyyətlərini dissertasiya işinin problematikası ilə mexaniki şəkildə birləşdirib öz səylərini minimuma endirmə prinsipindən çıxış edərək həll etmişlər. Tədqiqat metodologiyanın yazılmasının belə bir resepti olduqca sadə və bəsitdir. Müəlliflər metod və prinsiplərin iki standart dəstini (ümumi elmi və xüsusi elmi) götürürlər və onları öz mövzularına "uyğunlaşdırırlar". Bu dəstlər hələ ötən əsrin 60-70-ci illərində standartlaşdırılmışlar. Onların müasir standartlardan yeganə fərqi ondan ibarətdir ki, onlar müasir tədqiqatçıların asanlıqla qurtula bildikləri kvazi-marksist pərdə ilə örtülmüşlər. Dissertasiya tədqiqatı metodologiyasının belə "qurulması"-ndan təbii bir sual yaranır: görəsən keçən müddət ərzində elmi tədqiqat metodunda heç nə dəyişməyib? Əgər, dissertasiyaların əksəriyyətinin girişində "Tədqiqatın

metodoloji əsasları” bölməsinin ənənəvi ifadələrini götürsək, o zaman görmək olar ki, hüquqi həyat fenomenlərinin öyrəilməsinin bazis prinsipləri, metod və vasitələri sistemində prinsip etibarilə yeni heç nə yaranmamışdır.

Metodoloji müddəalara standart və qərəzsiz yanaşma zamanı müəlliflər hətta doktor dissertasiyalarında belə tez-tez yanlış mülahizələrə və məntiqi səhvlərə yol verirlər. Belə ki, N.İ.Biyuşkina tarixi-genetik və konkret-tarixi metodları yanlış olaraq ümumi elmi metodlara aid edir [3, s. 11]. Öz növbəsində, P.A.Markov heç bir əsas olmadan məntiqi metodu və sistemli yanaşmanı xüsusi elmi metodlar kimi tanıyır [12, s. 8]. S.N.Yarışev özünün metodoloji yanaşma "sirri"-in açılmasına yalnız altı sətir həsr edir. Bununla yanaşı, o müqayisəli hüquqşünaslıq metodunun ümumnəzəri, sistem-struktur metodunun isə xüsusi elmi metodlara aid olduğunu bəyan edir [17, s. 6]. Bu səviyyədəki metodoloji səhvlər hüquq elmləri doktorları üçün üzürlü deyil.

Metodoloji müddəaların ifadə olunmasına bütün elmi ciddilik ilə yanaşmaq lazımdır. Çünki, hətta onların uğursuz strukturlaşdırılması zamanı belə onların dərk edilməsində çətinliklər yaranır. Məsələn, O.İ.Çepunov öz avtoreferatında yazır ki, o, “dövlət-hüquq hallarının və proseslərinin təhlilində xüsusi elmi metodlardan (formal-hüquqi, tarixi-hüquqi, müqayisəli-hüquqi, hüquqi modelləşdirmə) istifadə etmişdir” [16, s. 9].

Bizim tədqiqatımızın metodoloji müddəaları təkcə konstitusiya hüququ elmi ixtisasının xüsusiyyətlərini deyil, həm də elmi məktəbin təməl, fundamental mövqelərini əks etdirir.

Burada qeyd etmək lazımdır ki, bir elmi məktəbin alimləri elmi problemlərin həllində öz metodoloji yanaşmalarına malikdirlər və eyni peşə düşüncə tərzini tuturlar. Onları aparıcı bir alimin rəhbərliyi altında həyata keçirilən bir tədqiqat proqramı birləşdirir. Onların fəaliyyəti elmi-metodoloji mövqe və nüfuzlu bir liderin axtarış strategiyası ilə “möhkəmləndirilməlidir”. Elmi rəhbərin

(məsləhətçinin) metodoloji proqramının xüsusiyyətləri bu bölmədə öz əksini tapmalıdır.

Belə ki, T.Q.Leşkeviç metodologiyanın iki səviyyəsini qeyd edir: instrumental və konstruktiv [11, s. 23]. Birinci səviyyədə tədqiqatçı zehni və praktiki əməliyyatların düzgün gedişini təmin edən vasitələr dəstini (metodlar sistemini) yaradır. Burada o, əsasən işin məzmununu deyil, elmi axtarış metodlarını, matrisasını və alqoritmini müəyyənləşdirir. Vasitələr dəsti tədqiqat mövzusundan asılıdır və ona uyğun olmalıdır. Alman metodoloqu T.V.Adorno "ya metodları özlərindən inkişaf etdirməyə çalışdıqlarına görə, ya da artıq onların sərəncamında olan metodlara uyğun gələcək şəkildə kənardan seçdiklərinə görə predmetin deyil, metodun üstünlüyünə, primatına itaət edən" tədqiqatçıları tənqid edir [1, s. 76]. Buna görə, bütün tədqiqat müddəti ərzində alim vaxtaşırı metodologiyanın bu səviyyəsinə qayıdaraq öz alətlər dəstini təkmilləşdirməlidir. İkinci səviyyədə alim biliklərin artırılması və yeni mənalı biliklərin əldə edilməsinə çalışır. Bu biliklər nəticədə dissertant tərəfindən müdafiəyə təqdim olunan müddəalarda xülasə edilir. Elmi həqiqət hüquqi düşüncədə kütlüyü, ehkamçılığı və subyektivliyi istisna etməyə imkan yaradan tədqiqatçının gerçəkliyə, varlığa konstruktiv-tənqidi münasibəti olmadan əldə edilə bilməz. Empirik, praktiki bilik prinsiplərdən, postulatlardan, konseptlərdən, modellərdən və s. ibarət olan "gerçəkliyin konseptual çərçivəsi"-ni qurmağa imkan verən metodologiya ilə qurulur.

Konstitusiya islahatının tədqiq edilməsi metodologiyasının xüsusiyyətlərini vurğulayan O.Q.Rumyantsev yazırdı: "Hüquq elmi bu gün axtarışdadır, lakin əvvəlki illərə xas olan hakimiyyətə şərhçi xidməti göstərmək vəziyyətinə qayıtmaq haqqı yoxdur. Bu tənqidi olmayan formadan uzaqlaşma şüurludur, çünki bu, həyatımızda konstitusional düşüncənin yaradıcı istifadəsi imkanlarını genişləndirir" [13, s. 14].

O.Q.Rumyantsevin prinsipial mövqesi ilə razılaşaraq L.V.Butko konstitusiya islahatının tədqiq edilməsində sovet dövrünün metodologiyasına kor-koranə əməl

edilməsinin məqsədəuyğun olmamasını qeyd edir. Bununla yanaşı, onun konstitusiya islahatında hadisənin təsadüfün təzahürü kimi dəyərləndirilməsinə dair münasibəti ilə razılaşmaq olmaz. Onun fikrincə, özünü kifayət qədər ehtiyatlı ifadə etmiş müəllifin bu cür mövqeyinin əsasında konstitusiya islahatı gedişatında müəllifin fikrinə əks olan bir şey ilə yaranmış hansısa bir inciklik durur [4, s. 31].

Y.İ.Qrevtsovun fikrinə əsasən, insani baxımından onu başa düşmək olar, lakin konstitusiya islahatının qiymətləndirilməsində subyektiv olanın üstünlük təşkil etməsinə yol vermək olmaz, və ən başlıcası, Rusiya islahatlarının ümumi ziddiyyətliliyinin nəticəsi olmuş iki konstitusiya prosesinin mövcudluğu haqqında təklif yolverilməzdir [5, s. 6-7].

Tədqiq olunan hadisənin haçalanmasına aparan belə metodoloji üsulun kifayət qədər yayıldığını qeyd edən professor Y.İ. Qrevtsov vurğulayır: "Cəmiyyətdə iki fərqli hüquq sistemini tapmaq istəyi yaxşı perspektivə malik ola bilməz. Bu, hüquqi gerçəkliyin özü və onların köməyi ilə bu gerçəkliyi dərk etməyə və izah etməyə cəhd edən elmi üsullar arasındakı fərqi görmək iqtidarında olmayan təcrübəsiz bir düşüncənin, zehnin aldanmasıdır. Elmi metod çərçivəsində praktiki olaraq hər şey mümkündür, o cümlədən hüququn müxtəlif hissələrə bölünməsi" [5, s. 7].

Tarixi dövlət-hüquqi hadisələrin, o cümlədən məcmu halında konstitusiya islahatını təşkil edənlərin tədqiq edilməsi metodologiyasının problemlərinə həsr edilmiş müasir hüquq ədəbiyyatının xülasəsi belə bir nəticəyə gəlməyə əsas verir ki, bir çox müəllif bu məsələlərə müraciət edir. Nəticədə, sanballı tarixi baqaja, yükə malik olan metodlarla yanaşı empirik bazaya tətbiq edilməsi zərurəti tədqiqat üçün ümumiləşdirilmiş müasir qanunvericiliyin, hadisələrin xüsusiyyətləri ilə şərtlənmiş müxtəlif müasir metodlar da əsaslandırılır. Bunların arasında təsnifat metodu, sistem-struktur təhlili metodu, materialın analitik işlənməsi metodu, şərhlərin verilməsi metodu da var.

Alimlərin fikrincə, bu cür metodlar konstitusiya islahatının tədqiqində yalnız əlavə, ikinci dərəcəli rol oynaya bilər. Bununla birlikdə, müəyyən şərtlərdə bu və ya

digər xüsusi-elmi metod ilk növbədə tələb oluna bilər, lakin kompleks şəklində olan metodologiyanın formalaşması sxemi üstünlük təşkil edir [4, s. 34].

Bundan əlavə, L.V.Butko hesab edir ki, empirik məlumatları nəzəri quruluşlarla birləşdirən və fəlsəfə və sosiologiya ilə sıx metodoloji əlaqələri təmin edən digər variantlar da mümkündür. Belə hallarda tədqiqat prosesi bir neçə səviyyəni, mərhələni əhatə edir.

Birincisi, konstitusiya islahatının məzmununu ifadə edən materialların faktoloji seçimi formalaşdırılır. Onun çərçivəsində material elmi əsaslandırılmış meyarlar əsasında qruplaşdırılır və müqayisəli təhlil aparılır.

Növbəti mərhələdə əsasını müqayisənin aparılması təşkil edən empirik materialın nəzəri təşkil olunması təmin edilir. Bu zaman mücərrəd metodların tətbiq edilməsi tədqiq olunan hadisələrin quruluşunun, onların ümumi xassələrinin və qanunauyğunluqlarının, paralel proseslərlə və gerçəkliyin real hadisələri ilə əlaqəsinin müəyyən edilməsini təmin edir.

Üçüncü mərhələdə tarixi-hüquqi quruluşların, kateqoriya aparatının formalaşdırılması və əsaslandırılması, nəzəri anlayışların müəyyənləşdirilməsi və sistemləşdirilməsi, terminoloji izahlar, habelə konstitusiya islahatının regional səviyyədə, dövlət subyektlərində aparılmasının ümumi qanunauyğunluqları xüsusiyyətlərinin müəyyənləşdirilməsi mümkün olur.

Yekunlaşdırıcı hərəkət tədqiqat nəticələrinin konseptual rəsmiləşdirilməsidir [4, s. 35-36].

Bir çox alimlərin fikrincə, bu cür metodlar konstitusiya islahatlarının tədqiqində ciddi ardıcıllıq və tabeçilik qaydasında yerləşdirilmiş mücərrəd anlayışların, təsəvvürlərin, trafaretlərin məntiqi əsaslandırılmış, iyerarxiya qaydasına salınmış sisteminin yaradılmasını təmin etmək iqtidarındadır [2, s. 5].

Bundan əlavə, Q.V.Atamançuk tamamilə haqlı olaraq iddia edir ki, bilik sübutlar əsasında sistemləşdirildikdə, faktlar, hadisələr və həyat halları ilə kütləvi və sərbəst yoxlamaya (müqayisəyə) məruz qaldıqda nəzəriyyə xüsusiyyətini əldə edir,

çoxları üçün inandırıcı səslənir və onlar tərəfindən problemlərin həllində sınaqdan keçirilir, özünün müddəalarının və nəticələrinin dəyərini uzun müddət ərzində qoruyub saxlayır, bu və ya digər işlərin aparılmasında yeni formaların və yanaşmaların axtarışını sanki bir şüa ilə işıqlandırır [2, s. 5-6]. Bu dəqiq təsdiqləmə, şübhəsiz ki, hər şeydən əvvəl bütün konstitusiya islahatları kompleksinin bir obyekt kimi tədqiqinin metodoloji arsenalının qurulmasınının modelləşdirilməsi prosesində çoxvariantlılıq və kompleksilik haqqında nəticə çıxartmağa imkan verir.

L.V. Butkonun fikrinə görə, konstitusiya islahatlarının həqiqiliyi Hegelin fəlsəfi mövqelərinə əsaslanaraq özünün "dərk edilməsinə və dövlətin xarici müsbət nüfüzunamı, insanların ümumi razılığınamı, daxili hissin və qəlbin nüfuzunamı, ruhun birbaşa müəyyənedici dəlalətinəmi əsaslanıb-əsaslanmasından asılı olmayaraq öz-özlüyündə şüurlu mahiyyətə dayana bilməyən azad düşüncə üçün haqlı olsun deyə şüurlu formanın verilməsinə, özü-özündən çıxış etməyə ehtiyac duyur və məhz buna görə də, özünün həqiqətlə ən dərin birləşmədə dərk edilməsini tələb edir [6, s. 21]".

Əsrlər boyu formalaşan ümumi fəlsəfi metodoloji vasitələr dəstinin nüfuzu müasir qloballaşma dövründə xüsusilə artması və tədqiqatçılar üçün dəyərli olması heç bir şübhə doğurmur. Son zamanlar hüquq fəlsəfəsinin ən yaxşı ənənələri və konsepsiyaları fəal şəkildə istifadə olunur.

Konstitusiya islahatının tədqiqində fəlsəfi idrak metodlarının tətbiq olunmasının zəruriliyi onun qiymətləndirilməsində fəlsəfi kateqoriyaların fəal şəkildə istifadə olunması, fəlsəfə tərəfindən izah olunan bütün konstitusiya dəyişikliklərinin ictimai inkişaf qanunları üzrə həyata keçirilməsi ilə təsdiqlənir. Deməli, tədqiqat metodologiyası da fəlsəfi biliklərə əsaslanmalıdır [4, s. 45]. Belə ki, R. Yerinq iddia edirdi ki, əgər hüquqşünasların çoxunun öz metodları haqqında həqiqi bir anlayışa sahib olmadığını və elm sahəmizin bütün digər qanunları öz qanunlarından daha yaxşı bildiyini söyləsək, heç də şişirtmərik. Təcrübədə və

təcrübədən çıxış edərək hüquqi metod, əlbəttə ki, onlara çox yaxşı məlumdur, lakin o, aydın bir şüurun deyil, daha çox gizli bir duyğunun və mühafizəkarlığın predmeti kimi görünür [7, s. 6].

Bununla bağlı, hüquq fəlsəfəsi problemlərinin dərindən işlənib hazırlanmasının əsasında bütün hüquq elmləri kompleksinin tərəqqisinin, onların nəzəri səviyyəsinin artırılmasının zəruri ilkin şərtinin, cəmiyyətin bütün sahələrinə hüquqi təsirin effektivliyinin dayandığını qeyd edən C.A.Kərimovun mövqeyi olduqca ədalətlidir. Bununla, hüquq fəlsəfəsi ümumilikdə hüquqşünaslıq və onun hər bir sahəsinin inkişafı üçün fundamental əhəmiyyət kəsb edir [8, s. 4].

Həmçinin, insan biliyinin müasir inkişafında fəlsəfənin hər bir xüsusi elmin, o cümlədən dövlət-hüquq sahəsində praktiki olaraq bütün insan cəmiyyətini əhatə edən çoxsaylı hüquqi elmlərin qanunauyğunluqlarını tədqiq etmək iqtidarında olmadığını iddia edən digər müəlliflərin də mövqeyini qeyd etmək lazımdır. Buna görə, hüquq fəlsəfəsinin funksiyaları "ulu ana"-sı ilə təbii əlaqələri kəsmədən öz diqqətini ictimai həyatın bu sahəsinin əsas ümumi qanunauyğunluqlarının tədqiqinə yönəldən hüquq nəzəriyyəsinə həvalə edilmişdir [14, s. 31]. Bu ifadənin birinci hissəsində, demək olar ki, fəlsəfənin imkanlarının yekunlaşdırılmış əsaslandırılmasını görmək olar. Bu ifadənin ikinci hissəsi isə, bizim fikrimizcə, hüquq fəlsəfəsinin özünün mövcudluğunu heçə endirir, çünki müəllif onun funksiyalarını hüquq nəzəriyyəsinin üzərinə qoyulmasını təklif edir. Belə bir mülahizəni əsassız olduğunu və ya ən azından dəqiqləşdirilməyə ehtiyac duyduğunu demək olar.

Hüquq fəlsəfəsinin hüquq nəzəriyyəsi ilə nisbəti C.A.Kərimov tərəfindən daha dəqiq müəyyənləşdirilmişdir. O, yazır: “Hüquq fəlsəfəsi ümumi fəlsəfənin və bütün hüquq elmləri kompleksinin məhsuludur. Onun təyinatı bütün sahəvi hüquq elmlərini metodoloji alətlər dəsti ilə təchiz etməkdən ibarətdir” [9, s. 31].

Konstitusiya islahatları nəzəriyyəsi də belə bir alətlər dəstini hüquq fəlsəfəsinin əlindən qəbul etməlidir. O, həm elmi, həm də praktiki planda fəlsəfi biliklərə əsaslanmalıdır. Konstitusiya islahatlarında məntiqi və tarixi olanları

müəyyən etməyə, hüquq və hakimiyyətin, hüquq və dövlətin vəhdətinə əsaslanaraq onların ideyalarını, məzmununu, mahiyyətini dərk etməyə məhz fəlsəfi metodologiya imkan verir, çünki elmə üç zəruri əlamət xasdır: idrak metodları, mötəbərlik və ümumi əhəmiyyətlilik [18, s. 101].

Elmi ədəbiyyatda təsdiqləndiyi kimi, konstitusiya islahatlarının tədqiqi üçün metodoloji alətlər dəsti konstitusiya proseslərinin xarakteri ilə müəyyən edilən mürəkkəb və müxtəlif faktorlu görünür. Tədqiqat metodologiyası kifayət qədər müstəqil və obyektiv olmasına baxmayaraq, üzərində ictimai münasibətlərin sabitlik və ya dağıdıcılıq izini daşıyır. Bununla əlaqədar olaraq, konstitusiya islahatları tədqiqatçısının əməl etməli olduğu əsas şərt ondan ibarətdir ki, o, tədqiqatın obyektiv vasitələri və üsullarına, obyektiv və etibarlı məlumatlarına arxalanmalı və bu əsasda əsaslandırılmış nəticələr təklif etməlidir [4, s. 49].

Beləliklə, konstitusiya islahatlarının tədqiqi metodologiyasının fundamental, təməl əsasını məntiqi (doqmatik) təhlil metodu təşkil edir. Onun istifadəsi doktrinal təsvirlər, ümumiləşdirmələr, sistemləşdirmə, materialın məntiqi nizama salınması, anlayışların, şərhlərin tərifinin tərtib edilməsi, öyrənilən hadisələrin mənasının təfsir edilməsi üçün zəruri ilkin şərtlər yaradır. Bu da, konstitusiya islahatının onun çərçivəsində baş verən konstitusiya-hüquq proseslərinin və bununla əlaqədar qəbul olunan konstitusiya-hüquq normalarının ən sadə təsvir üsullarından başlayaraq tədqiqinə imkan verir.

Son olaraq qeyd edilməlidir ki, konstitusiya islahatlarının tədqiqinin metodoloji alətlər dəsti konstitusiya proseslərinin immanent təbiəti ilə müəyyən olunan mürəkkəb və çoxamilli bir hadisədir. Kifayət qədər müstəqillik və obyektivlik əldə edərək tədqiqat metodologiyası birbaşa ictimai münasibətlərin sabitliyindən və ya pozulmasından (qeyri-sabitliyindən) asılıdır. Bununla əlaqədar olaraq, konstitusiya islahatlarının mahiyyətinin düzgün dərk edilməsinin əsas metodoloji şərtini tədqiqatın obyektiv vasitə və üsullarına, obyektiv və etibarlı məlumatlara qnosioloji

istinad təşkil edir. Bu isə, həm nəzəri, həm də praktik məzmunlu əsaslandırılmış, dəlillərlə sübut edilmiş nəticələr ifadə etməyə imkan yaradır.

## References


1. Adorno T.V. K logike sotsial'nykh nauk [To the logics of social sciences]. Voprosy folosofii [Issues of Philosophy]. 1992. No. 10, pp. 65-75.
2. Atamanchuk G.V. Teoriya gosudarstvennogo upravleniya. Kurs lektsiyi [Theory of the pubic administration. Course of lectures]. Moscow, 1997, 400 p.
3. Binyushkina N.I. Politiko-pravovoe razvitie rossiyiskogo gosudarstva v usloviyakh okhranitel'nogo vnutripoliticheskogog kursa [Political and legal development of the Russian state in the conditions of protective inner political course]. Avtoref. dis… dokt. yurid. nauk [Abstract of PhD in Law dissertation]. N. Novgorod, 2012, 58 p.
4. Butko L.V. Konstitutsionnaya reforma (teoretiko-pravovoyi analiz) [Constitutional reform: theoretical and legal analisys]. Dis… dokt. yurid. nauk [Doctor of Law Dissertation]. S. Petersburg, 1998, 584 p.
5. Hegel G.V. Filosofiya prava [Philosophy of Law]. Moscow, 1993, 927 p.
6. Grevtsov Yu.I. Ocherki teorii i sotsiologii prava [Outlines of theory and sociology of law]. S. Petersburg, 1996, 320 p.
7. Iering R. Bor'ba za pravo [Fight for law]. S. Petersburg, 1909, 321 p.
8. Kerimov D.A. Osnovy filosofii prava [Fundamentals of law philosophy]. Moscow, 1992, 358 p.
9. Kerimov D.A. Predmet filosofii prava [Subject of law philosophy]. Gosudarstvo i pravo [State and Law]. 1994. No. 7, pp. 3-10.
10. Kutafin O.E. Predmet konstitutsionnogo prava [Object of the constitutional law]. Moscow, 2001, 444 p.

11. Leshkevich T.G. Filosofiya nauki: traditsii i novatsii [Philosophy of science: traditions and novations]. Moscow, 2001, 428 p.

12. Markov P.A. Teoriya reorganizatsii kommercheskikh yuridicheskikh lits: problemy pravovogo regulirovaniya i pravoprimeneniya [Theory of reorganization of commercial legal entities: problems of legal regulation and law applying]. Avtoref. dis… dokt. yurid. nauk [Abstract of Doctor of Law Dissertation]. Moscow, 2011, 57 p.

13. Rumantsoev O.G. Osnovy konstitutsionnogo stroya [Basis of constitutional system]. Moscow, 1994, 285 p.

14. Tikhonravov Yu.V. Osnovy filosofii prava [Fundamentals of philosophy of law]. Moscow, 1997, 608 p.

15. Fairabend P. Protiv metodologicheskogo prinuzhdeniya [Agaist methodological coercion]. Izbrannye trudy [Chosen works]. Moscow, 1986, pp. 451-454.

16. Chepunov O.I. Sistemnoe vzaimodeyistvie organov gosudarstvennoyi vlasti v Rossiyiskoyi Federatsii [Systemic interaction of the bodies ostate power in Russian Federation]. Avtoref. dis… dokt. yurid. nauk [Abstract of Doctor of Law Dissertation]. Moscow, 2011, 56 p.

17. Yaryshev S.N. Mezdunarodno-pravovye voprosy formirovaniya i funktsionirovaniya Edinogo ekonomicheskogo prostranstva [International legal issues of formation and functioning of the Unified economic area]. Avtoref. dis… dokt. yurid. nauk [Abstract of Doctor of Law Dissertation]. Moscow, 2012, 39 p.

18. Jasper Karl. Smysl i naznachenie istorii [Meaning and purpose of history]. Per. s nem. [Transl. from German]. Moscow, 1994, 527 p.